MUSİQİ DÜNYASI 3/80 2019

# AZƏRBAYCAN BƏSTƏKARLAR İTTİFAQININ SƏYYAR PLENUMU GƏNCƏDƏ KEÇİRİLİB

*Sevda QURBANƏLİYEVA*

Azərbaycan Bəstəkarlar İttifaqının yaranmasının 85 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində 2019-cu ilin iyun ayında Gəncə şəhərində İttifaqın səyyar plenumu keçirildi.

Plenumda Azərbaycan Bəstəkarlar İttifaqının İdarə Heyətinin nümayəndələri, İttifaqın üzvləri, Gəncə Regional Mədəniyyət İdarəsinin, o cümlədən Uşaq Musiqi Məktəblərinin rəhbərliyi və əməkdaşları, Gəncə Musiqi Kollecinin müəllim və tələbələri, Gəncə Dövlət Universitetinin "Musiqi fənləri" kafedrasının professor-müəllim heyəti, "Musiqi müəllimliyi" ixtisası üzrə tələbələri, Gəncə Dövlət Filarmoniyasının musiqi kollektivləri iştirak etdi.

Plenum öz işinə iyunun 19-da F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının kamera zalında başladı. Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi, Üzeyir Hacıbəylinin Ev Muzeyinin direktoru, tanınmış bəstəkar Sərdar Fərəcov plenumu giriş sözü ilə açaraq, Bəstəkarlar İttifaqının səyyar plenumunun Azərbaycanın ən qədim tarixə malik şəhərlərindən biri, ölkənin ikinci böyük şəhəri, dünyaya Nizami, Məhsəti, Mirzə Şəfi Vazeh kimi dahilər, Fikrət



**Azərbaycan Bəstəkarlar İttifaqının Gəncə şəhərində keçirilən Səyyar Plenumunun iştirakçıları Mir Cəlal Paşayevin Ev Muzeyində.Gəncə, 20.06.2019**



Azərbaycan Bəstəkarlar İttifaqının Səyyar Plenumunun açılış mərasimi. Gəncə, 19.06.2019



Gəncə Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin çıxışı. Dirijor: E.Elçiyev. Solist: S.İbrahimova



Gəncə Dövlət Filarmoniyasının Kamera Orkestrinin çıxışı. Dirijor: R.Bayramov. Konsertmeyster: Z.Allahverdiyeva



AZƏRBAYCAN BƏSTƏKARLAR İTTİFAQINDA

MUSİQİ DÜNYASI 3/80 2019

Əmirov, Qəmbər Hüseynli, Telman Hacıyev, Zərif Qayıbov, Ələkbər Tağıyev, Mobil Əhmədov və neçə-neçə görkəmli musiqi xadimləri, böyük şəxsiyyətlər bəxş edən Gəncə şəhərində keçirilməsinin mühüm əhəmiyyətindən danışdı.

F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının musiqi kollektivlərinin - Xalq Çalğı Alətləri Orkestrinin (dirijor - Əməkdar artist Elçin Elçiyev, konsertmeyster - Əməkdar artist Mahir Məmmədov), Kamera Orkestrinin (bədii rəhbər və dirijor - Xalq artisti Rafael Bayramov, konsertmeyster - Əməkdar artist Zərinə Allahverdiyeva) və solistlərinin (Xalq artisti Sevinc İbrahimova, Əməkdar mədəniyyət işçisi Mehbarə Cəfərova, gənc ifaçılar Günel Hacıyeva, Zeynəb Hüseynova), Xor kollektivinin ifasında milli xalq və peşəkar musiqi nümunələri səsləndirildi. Üzeyir Hacıbəyli, Asəf Zeynallı, Qara Qarayev, Fikrət Əmirov, Qəmbər Hüseynli, Telman Hacıyev, Tofiq Quliyev, Firəngiz Əlizadə, Dadaş Dadaşov, Sərdar Fərəcov, Ceyhun Allahverdiyev, Aliyə Məmmədova, Məmməd Cəfərov və Firudin Allahverdiyevin əsərləri, Azərbaycan xalq mahnıları yüksək peşəkarlıq səviyyəsində ifa olundu. Musiqiçilərin hər bir çıxışı tamaşaçılar tərəfindən hərarətlə qarşılandı.

Bəstəkar Məmməd Cəfərov və xormeyster Nazilə Cəfərovanın Gəncə Dövlət Filarmoniyasının nəzdində ictimai əsaslarla təşkil etdikləri xor kollektivi bəstəkarlarımızın xor əsərlərini, Azərbaycan xalq mahnılarının xor üçün işləmələrini xüsusi şövqlə ifa etdi.

Konsert Gəncənin musiqiçilərinin zəngin potensialını bir daha nümayiş etdirdi. Ayrı-ayrı nəsillərə malik bəstəkarların müxtəlif üslublu əsərlərinin ifa səviyyəsi iştirakçılar tərəfindən yüksək dəyərləndirildi.

İyunun 20-də plenum öz işini görkəmli nasir, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin Ev Muzeyində davam etdirdi.

Burada təşkil edilən kitab sərgisində nümayiş olunan Azərbaycan Bəstəkarlar İttifaqının üzvlərinin son illərdə çap edilən elmi əsərləri, not nəşrləri plenum iştirakçıları tərəfindən maraqla qarşılandı.

Plenumda Azərbaycan Bəstəkarlar İttifaqının katibləri Sərdar Fərəcov, Aliyə Məmmədova, sənətşünaslıq üzrə elmlər doktoru, professor Sevda Qurbanəliyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Bəstəkarlar İttifaqının İdarə Heyətinin üzvü Turan Məmmədəliyeva, gənc bəstəkarlar Firudin Allahverdiyev, İlahə İsrafilova elmi məruzələrlə çıxış etdilər.

Söylənən fikirlərdə vurğulandı ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin, ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti çox hörmətli Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində Azərbaycan mədəniyyətinin tədqiqi və təbliği istiqamətində ardıcıl, məqsədyönlü tədbirlər uğurla həyata keçirilir.

Çıxışlarda minnətdarlıq hissi ilə xatırlandı ki, ulu öndər Heydər Əliyevin göstərişinə əsasən 1994-cü ilin iyun ayının 4-də Gəncənin musiqi həyatında əlamətdar hadisə baş vermişdir. Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri, Xalq artisti Tofiq Quliyev başda olmaqla həmin birliyin birinci katibi, Xalq artisti Vasif Adıgözəlov və Bəstəkarlar İttifaqının katibi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Ramiz Zöhrabovun iştirakı ilə Gəncədə Bəstəkarlar İttifaqının səyyar plenumu keçirilmişdir. Plenumda Azərbaycan Bəstəkarlar İttifaqının Gəncə Təşkilatı yaradılmışdır. Azərbaycan Bəstəkarlar İttifaqının üzvlərindən Gəncə şəhərində ilk sənətşünaslıq namizədi elmi adını alan mərhum Rauf İsmayılzadə həmin yaradıcılıq birliyinin sədri, o dövrdə Gəncə şəhərində yaşayıb-yaradan bəstəkar Qalib Məmmədov isə məsul katibi seçilmişlər.

Hazırda Azərbaycan Bəstəkarlar İttifaqının Gəncə Təşkilatının üç üzvü var: bəstəkarlar Məmməd Cəfərov və Faiq Nağıyev, sənətşünaslıq üzrə elmlər doktoru, professor Sevda Qurban-əliyeva. Təşkilata Azərbaycan Respublikasının Əməkdar artisti, bəstəkar Məmməd Cəfərov rəhbərlik edir.

Ötən müddət ərzində Bəstəkarlar İttifaqının Gəncə Təşkilatının üzvləri tərəfindən milli mədəniyyətin qorunması və inkişafı istiqamətində mühüm əhəmiyyət daşıyan tədbirlər həyata keçirilmişdir. Professor Sevda Qurbanəliyevanın onlarla elmi əsəri nəşr olunmuş, istedadlı bəstəkarlar Məmməd Cəfərovun, Faiq Nağıyevin müxtəlif janrlarda bəstələdikləri bir sıra musiqi əsərləri müvəffəqiyyətlə ifa olunmuş və çap edilmişdir.

Xalq artisti, dünya şöhrətli bəstəkar Firəngiz Əlizadənin 2007-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının sədri kimi fəaliyyəti nəticəsində Gəncə Təşkilatına diqqət artmış, Təşkilatın üzvləri Prezident Təqaüdünə təqdim olunmuşlar.

Şəhərin musiqi xadimlərinin birgə işini istiqamətləndirən Azərbaycan Bəstəkarlarının Gəncə Təşkilatının üzvləri Azərbaycan mədəniyyəti və incəsənətinin tədqiqi və təbliğində, bu sahədə elmi və pedaqoji kadrların hazırlanmasında fəal iştirak edirlər.

Plenumda aparılan fikir mübadiləsində uşaqların musiqi tərbiyəsinə, gənc nəslin musiqi zövqünün



Gəncə Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin çıxışı. Dirijor: E.Elçiyev. Solist: M.Cəfərova

formalaşmasına diqqətin artırılması, gənc bəstəkarların əsərlərinin geniş təbliği, musiqi əsərlərinin nəşri, bölgələrdə fəaliyyət göstərən musiqi kollektivlərində repertuar zənginliyinin yaradılması, bu kollektivlərin beynəlxalq musiqi festivallarına cəlb edilməsi, musiqi təhsilinin səviyyəsinin yüksəldilməsi üçün ümumtəhsil məktəblərinin və uşaq musiqi məktəblərinin müəllimləri ilə onlara metodiki köməklik xarakteri daşıyan görüşlərin keçirilməsi və sair bu kimi təklif və tövsiyələr səsləndirildi.

Plenum işirakçıları tərəfindən qeyd edildi ki, Bəstəkarlar İttifaqının Plenumlarının Azərbaycan Respublikasının bölgələrində keçirilməsi təcrübəsi olduqca dəyərlidir və səyyar plenumların keçirilməsinin ənənə halını alaraq davam etdirilməsi məqsədəuyğun olardı.



Gəncə Dövlət Filarmoniyasında ictimai əsaslarla yaradılmış xor kollektivinin çıxışı. Dirijor: N.Cəfərova

Sonda Azərbaycan bəstəkarlarının kamera-instrumental, vokal əsərlərini gənc ifaçılar - Fəqan Həsənli (fortepiano), Süleyman Eyyubov (violin), Aytən Orucəliyeva (vokal), Aytən Nəsibova (vokal), Gülmira Həmzəyeva (vokal) ifa etdilər. Kamera konsertinin proqramı Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Qara Qarayev, Niyazi, İsmayıl Hacıbəyli, Vaqif Mustafa-zadə, Qalib Məmmədov, Cəlal Abbasov, Məmməd Cəfərov və gənc bəstəkar İlahə İsrafilovanın əsərlərindən tərtib olunmuşdu. Səhnədə Beynəlxalq müsabiqə laureatları ilə yanaşı Gəncə şəhərini təmsil edən gənclər - Ülvi İsmayılov, İlqar Bədəlli (Gəncə Musiqi Kollecinin müəllimi Xatirə Usubovanın fortepiano sinfi) öz istedadlarını inamla nümayiş etdirdilər.

Plenumda səslənən musiqilər, aparılan müzakirələr milli musiqi mədəniyyətimizin təbliği baxımından çox əhəmiyyətli oldu.

Azərbaycan Bəstəkarlar İttifaqının Gəncə şəhərində keçirilən səyyar plenumu sözün əsl mənasında Azərbaycan musiqisinin bayramına çevrildi.